**"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" təqaüdçülərini tanıdan "Uğur formulu" layihəsinin bu dəfəki qonağı Niderland Krallığının Neymegen Universitetinin magistrantı Rauf Mahmudludur.**

***R.Mahmudlu kompüter elmləri ixtisası üzrə magistratura səviyyəsində təhsilini davam etdirir.***

***2007-2010-cu illərdə Bremen Universitetində elektrik və kompüter mühəndisliyi ixtisasına yiyələnib.***



---

**- Xaricdə təhsil sizə nə verir? Ümidlərinizi doğruldurmu?**

**-** Neymegen Universitetindəki təhsilim, uzun zamandır arzusunda olduğum ixtisasa yiyələnməkdə yardımçı olmaqla yanaşı, mənə dünyanın müxtəlif ölkələrindən gəlmiş tələbələrlə ünsiyyətdə olmaq, fikir mübadiləsi aparmaq şansını verir. Burada olduğum 2 ay ərzində doğru seçim etdiyimə bir daha əmin oldum.

---

**- İxtisasınızla bağlı ilk mərhələdə hansı kitabları seçmisiniz?**

**-** İxtisasım olan kompüter təhlükəsizliyi sahəsi çox sürətlə inkişaf etdiyindən, üzərindən bir neçə ay keçdikdən sonra dərc olunan material öz aktuallığını itirir. Məhz bu səbəbdəndir ki, araşdırmalar, təhlillər və həllər əsasən yaxın tarixdə dərc olunmuş elmi məqalələrə istinadən aparılır. Buna baxmayaraq, məlumat bazaları, əməliyyat sistemləri, kompüter şəbəkələri, kriptoqrafiya kimi sahələrin əsaslarını öyrənmək üçün kitablara da ehtiyac duyulur.

| | |
|---|---|
| | "Introduction to Cryptography", "Network Security Essentials", "Introduction to Biometric Recognition", "Head First Java" kimi kitablar, ISO, IETF və IANA tərəfindən yayımlanmış standartlar ilkin olaraq seçdiyim informasiya resurslarıdır. |
| **- Fərqli ölkə və təhsil mühitini gördükdən sonra əvvəl oxuduğunuz ali məktəbdə nəyin dəyişməsini arzulayardınız?** | - Bakalavriat təhsilimi də xarici ölkədə aldığımdan və Azərbaycanda ali məktəbdə oxumadığımdan bu suala cavab verməkdə çətinlik çəkirəm. |
| **- Təhsil aldığınız ölkəyə Azərbaycanla bağlı hansı materialları aparmısınız?** | - Təhsil Nazirliyi tərəfindən verilmiş materiallara əlavə olaraq, Azərbaycan və Bakı haqqında bir neçə suvenir gətirmişəm. |
| **- Azərbaycan gənclərinə, ölkəmizdəki dostlarınıza, həmyaşıdlarınıza nə demək istərdiniz?** | - Uğura aparan yolda ən önəmli meyar məqsədlərinizə doğru sistemli şəkildə, addım-addım irəliləməkdir. Bu yolda vaxtınızı və enerjinizi ən səmərəli şəkildə istifadə etmək olduqca vacibdir. |
| **- - Oxuduğunuz ali məktəbdə müəllim-tələbə münasibəti necədir?** | - Oxuduğum universitetdə müəllim-tələbə münasibətləri dərs saatları xaricində qeyri-rəsmi və səmimidir. Müəllimlər tələbələrlə istənilən mövzu ətrafında müzakirə aparmağa və ehtiyac olduqda köməklik göstərməyə hazırdırlar. |
| **- Universitetdə əcnəbi tələbələrə** | - Niderland Krallığı əcnəbilərə qarşı tolerant yanaşma baxımından digər Avropa ölkələrindən seçilir. |

| | |
|---|---|
| **münasibətdən razısınızmı?** | Universitetdə də əcnəbi tələbələrə qarşı olan münasibət yerli tələbələrə olan münasibətdən fərqlənmir. |
| **- Xarici ölkədən Azərbaycan təhsilini necə görürsünüz?** | - Azərbaycanda orta məktəb dərsliklərinin və kurrikulumun kifayət qədər yaxşı olduğunu, amma, eyni zamanda müəyyən istiqamətlər üzrə islahatlara ehtiyac olduğunu düşünürəm.<br>Azərbaycanda ali təhsil almadığım üçün bu sahə ilə bağlı şərh verə bilmərəm. |
| **- Çətinlikləriniz varmı?** | - Xeyr. Elə bir çətinliyim yoxdur. |
| **- Asudə vaxtınızda nə ilə məşğul olursunuz?** | - Asudə vaxtlarımda idmanla məşğul oluram. Həmçinin, səyahət edir və holland dilini öyrənirəm. |